**Azərbaycan Respublikasının Nazirlər Kabineti**

# Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2012-ci il 26 sentyabr tarixli 214 nömrəli qərarı ilə təsdiq edilmiş «Azərbaycan Respublikası gömrük orqanlarının vəzifəli şəxslərinin xüsusi geyim forması və fərqlənmə nişanları ilə təchizat Normaları»nda dəyişikliklər edilməsi haqqında

## Qərar № 51

**Bakı şəhəri, 26 fevral 2015-ci il**

Azərbaycan Respublikası Konstitusiyasının 119-cu maddəsinin səkkizinci abzasını rəhbər tutaraq, Azərbaycan Respublikası Dövlət Gömrük Komitəsinin Azərbaycan Respublikasının Ədliyyə Nazirliyi və Azərbaycan Respublikasının Maliyyə Nazirliyi ilə razılaşdırılmış təklifini nəzərə alaraq Azərbaycan Respublikasının Nazirlər Kabineti **qərara alır:**

1. Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2012-ci il 26 sentyabr tarixli 214 nömrəli qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2012, № 9, maddə 940) ilə təsdiq edilmiş «Azərbaycan Respublikası gömrük orqanlarının vəzifəli şəxslərinin xüsusi geyim forması və fərqlənmə nişanları ilə təchizat Normaları»nda aşağıdakı dəyişikliklər edilsin:

1.1. 1.1-ci, 1.26-cı, 1.27-ci, 2.7-ci, 2.24-cü bəndlərdə «5 il» sözləri «4 il» sözləri ilə, 1.3-cü, 1.6-cı, 2.3-cü bəndlərdə «3 il» sözləri «1,5 il» sözləri ilə, 1.4-cü, 1.5-ci, 2.2-ci, 2.4-cü, 2.5-ci bəndlərdə «2 il» sözləri «1,5 il» sözləri ilə, 1.14-cü, 1.15-ci, 1.23-cü, 1.24-cü, 1.25-ci, 2.13-cü, 2.14-cü bəndlərdə «3 il» sözləri «2 il» sözləri ilə, 1.22-ci, 2.19-cu bəndlərdə «2 il» sözləri «1 il» sözləri ilə, 1.32-ci, 1.33-cü, 2.29-cu, 2.30-cu bəndlərdə «3 il» sözləri «1 il» sözləri ilə, 1.34-cü, 2.31-ci bəndlərdə «5 il» sözləri «2 il» sözləri ilə, 1.35-ci, 2.32-ci bəndlərdə «1 ədəd» sözləri «2 ədəd» sözləri ilə, 3.10-cu bənddə «6 il» sözləri «3 il» sözləri ilə əvəz edilsin;

1.2. 1.7-ci, 1.10-cu, 1.11-ci, 1.18-ci, 2.9-cu, 2.10-cu, 2.17-ci, 2.18-ci, 3.3-cü bəndlərdən «(poqonlarla və qol nişanı ilə)» sözləri, 1.8-ci, 1.9-cu, 1.12-ci, 1.13-cü, 1.14-cü, 1.15-ci, 2.6-cı, 2.8-ci, 2.11-ci, 2.12-ci, 2.13-cü, 2.14-cü bəndlərdən «(poqonlarla, qol və yaxa nişanları ilə)» sözləri, 1.16-cı, 2.15-ci və 3.4-cü bəndlərdən «(poqonlarla)» sözləri çıxarılsın;

1.3. cədvəlin sonuna aşağıdakı məzmunda «Qeyd» əlavə edilsin:

«**Qeyd.** Fərqlənmə nişanları ali, baş, orta rəis heyətinə və kiçik heyətə daxil olan vəzifəli şəxslərə hər geyim forması üçün 1,5 il müddətinə verilir.».

2. Bu qərar imzalandığı gündən qüvvəyə minir.

**Azərbaycan Respublikasının Baş naziri**
**Artur RASİ-ZADƏ**